# NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN

# F Ə R M A N I

**“Naxçıvan Muxtar Respublikasında rəqəmsal inkişaf sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2025-ci il 17 dekabr tarixli 26-VII FR nömrəli Fərmanının icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi barədə**

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini və 30-cu maddəsini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aşağıdakı fərman və sərəncamlarında dəyişikliklər edilsin:

1.1. “Naxçıvan Muxtar Respublikasında informasiya kommunikasiya texnologiyaları və rabitə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 18 oktyabr tarixli 3-VII FR nömrəli Fərmanının 2-6-cı hissələri ləğv edilsin;

1.2. “Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində “N-Telekom” publik hüquqi şəxsin və “Naxçıvanpoçt” publik hüquqi şəxsin yenidən təşkili haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2025-ci il 08 avqust tarixli 22-VII FR nömrəli Fərmanının 2-7-ci hissələri ləğv edilsin;

1.3. “Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin yanında "Naxçıvanpoçt” Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2013-cü il 30 iyul tarixli 142-04/S nömrəli Sərəncamının 2-ci hissəsi ləğv edilsin;

1.4. “Naxçıvanpoçt” publik hüquqi şəxsin yaradılması haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2019-cu il 04 noyabr tarixli 412-05/S nömrəli Sərəncamının 2-ci və 3-cü hissələri ləğv edilsin;

1.5. “Naxçıvan Muxtar Respublikası Radio-Televiziya Ötürücü Mərkəzinin publik hüquqi şəxsə çevrilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2020-ci il 01 fevral tarixli 450-05/S nömrəli Sərəncamının 2-ci hissəsi ləğv edilsin.

2. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini** **BƏXTİYAR MƏMMƏDOV**

Naxçıvan şəhəri, 12 fevral 2026-cı il
№ 37-VII FR